# AZƏRBAYCAN TARİXİ POEMALARINDA QADIN ŞAİRLƏRİMİZİN BƏDİİ OBRAZININ TƏRƏNNÜM XÜSUSİYYƏTLƏRİ

*(Əvvəli ötən sayımızda)*

Məhsətiyə cavab göndərən Nizami şairənin xilası üçün şaha müraciət edir:

Ayrı bir təmənna gətirdi məni,
Anasız qoymasın şahım Gəncəni.
Böyük Məhsətini qaytar, amandır!
Anasız bir xalqın bəxti yamandır. (2, s. 223) xahişinə məhəl qoyulmadıqda pərişan geri dönür. Sultan Səncərin vəfatından sonra şairə Gəncəyə qayıdır, Gəncədə yanan nur Gəncədə də sönür. Xalqımızın sevimli şairəsi, incə qəlbli Məhsəti Gəncəvi yaşayıb yaratdığı Gəncə torpağında da əbədiyyətə qovuşur:

Hıçqırıq, göz yaşı nə çox göründü,
Hər yandan matəmli bir sükut endi.
Ürək dərd əlindən eylədi fəğan,
Böyük Məhsətini öldürdü zaman...
(2, s. 231)

Dövrün ehkamlarının, adət-ənənələrinin şiddətini hər an özündə hiss edən, 90 ildən artıq həyat sürən, öz qismətinə düşən kədərlə yanaşı başqalarının da dərdini yaşayan rübai ustadı Məhsəti obrazı M.Dilbazi tərənnümündə şair təxəyyülünə də yer verməklə vəsf edilmişdir. Buna baxmayaraq, ədəbi tənqiddə də vurğulandığı kimi, "...sənətkarlıq və tarixi faktla işləmək baxımından poetik imkanlarını tam ifadə edə bilməsə də, Mirvarid Dilbazinin poeması ("Məhsəti" – S.Ə.) yarandığı dövrdə böyük şöhrət qazanmışdı" (7, s. 43). (Ağabalayeva S. Zamanla üz-üzə. Bakı, "Təhsil", 2013, 176 s.). Qeyd edək ki, M.Dilbazinin Məhsəti dünyasını canlandırarkən bəzi hallarda tarixi gerçəkliklə uzlaşmayan epizodları əsərin süjetinə daxil etməsi poema qəhrəmanının dövrü, müasirləri, həyatı və yaradıcılığı ilə bağlı bir çox tarixi-filoloji faktların indiyədək dəqiqləşdirilməməsi, onların rəvayət halında mövcud olması ilə izah olunur, məhz elə bu səbəbdən də müəllifə qarşı hər hansı bir irad irəli sürmək çətindir.

Gözəl rübailərilə Azərbaycan klassik poeziyasına qadın ürəyinin hərarətini gətirmiş Məhsəti Gəncəvi obrazı ədəbiyyata zərif məhəbbət lirikası, ana, vətən mövzularının müəllifi kimi daxil olan Nigar Rəfibəyli (1933-1981) yaradıcılığında da öz ifadəsini tapmışdır. N.Rəfibəyli poeziyasında əsas mövzu kimi qadın azadlığının tərənnümü olduğunu nəzərə alsaq, onun orta əsr qadınının faciəsini aradan qaldırmaq yolunda çarpışan Məhsəti yaradıcılığına müraciətinin, haqqında dramatik poema yazmasının heç də təsadüf olmadığını təsdiq etmək olar. Bir vaxtlar ədəbiyyatşünas Əli Nazim də qeyd etmişdir ki, "Azərbaycan qadınlarının faciəli keçmişi, ...ümumiyyətlə, qadın vüqarı, ana ülviyyəti Nigar xanımın ən çox qələmə aldığı, ən çox tərənnüm etdiyi motivlərdən biri, bəlkə də birincisidir" (8, s. 183). (İki ömrün işığı [Mətn]: ədəbiyyatşünaslıq tərt.ed. R. Hüseynov, H. Şəmsizadə ; red. Z. Şahsevənli. - Bakı: Gənclik, 1987. - 551 s.).

Qeyd edək ki, poemanın digər növlərilə müqayisədə dramatik poema ictimai şüurun fəal inkişafı mərhələlərilə şərtləndirilən ədəbi həyatın daha intensiv inkişafı dövründə özünü büruzə verən janr növlərindəndir. Eyni zamanda bu fakt poetik yaradıcılığın növü olaraq janrın xüsusi göstəricisi kimi də çıxış edir. "Məhsəti" (9) (Nigar Rəfibəyli. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 392 s.) poemasının dramatik janr üslubunda yazılması, onun məzmununun real tarixi mətn əsasında qurulması, müəllifin hadisələrə dramatik münasibətilə şərtləndirilir. 1940-cı ildə qələmə alınmış və dramatik poemadan bir parça şəklində çap olunmuş əsər XII əsrdə yaşayıb yaratmış Məhsəti Gəncəvinin həyatının bir məqamına – atasının onu zorla Şirvan xanı ilə ailə qurmasına razı etməyə çalışarkən şairənin öz arzusunu ifadə etməsi, çəkdiyi iztirab, böyük Nizami ilə dərdləşməsinə həsr olunmuşdur. Poema tamamlanmasa da, o, maraqlı süjet və kompozisiya xüsusiyyətlərinə malikdir. Müəllif dramatik vasitələrlə dövrün insan və cəmiyyət münasibətlərində yaratdığı ziddiyyətləri və onların müxtəlif təzahürlərini Məhsəti obrazında ifadə edir.

N.Rəfibəyli öz əsəri ilə müasir oxucunu Məhsətinin dərdli dünyası ilə tanış edir, könlü viran edilmiş şairənin əzablarını ona çatdırır. Müəllif əsər boyu orta əsrlər dövrünün özünəməxsus qanunlarından, adət-ənənələrin yaratdığı təlesizlikdən, insanların ən səmimi hisslərindən məhrum olmalarının acısından danışır. Əsər Məhsətinin öz otağında oturub şeir yazması və "kimiyəm" rədifli qəzəlini dilləndirməsilə başlanır. Dramatik poemanın süjeti üç istiqamət üzrə inkişaf edir. Əvvəlincidə Məhsətinin Həmayillə söhbəti, digərində xanla görüşü, sonuncuda isə Nizamilə dövranın dərdlərindən şikayəti nəql olunur.

Həmayilin yuxusunun təsvir edilməsi əsərdə xüsusi məna yükü daşıyır. O, qarışıq yuxu görür, onu böyük həyəcanla Məhsətiyə danışır:

Gördüm qara bulud aldı göyləri,
Sis, duman bürüdü bütün hər yeri.
Bir qara div çıxıb səni apardı,
Yox olub göylərin dibinə vardı,
Ağladım dalınca, çırpındım yerdə,
Sən isə yox oldun dərin göylərdə...
(9, s. 245)

Bu psixoloji ağırlıq Məhsətidə də hiss olunur, o, ürəyinin nədən tutqun olduğunu bilməsə də, sinəsini dağıdan dərddən əzab çəkir. Şairənin gəncliyinin xəzələ dönməsinin səbəbi onun atalığı xanla dialoqunda açıqlanır. Xanın qızına müraciətlə:

Neçin, gözəl maral, dalğınsan belə,
Yenə kim toxunmuş bir incə gülə...
(9, s. 246)

sualına Məhsəti talesizliyini ana məhəbbətindən məhrum olması, atalığının ona zülmü, mənhus sarayın onunçün cəhənnəmə dönməsilə, həyatda tənhalığı ilə cavab verir:

Könlüm viran oldu əzəldən mənim.
Olmadı bir kimsəm, bir istəyənim...
Ta uşaq vaxtından yetim qaldım mən,
Doymadım heç ana məhəbbətindən.
Könlüm açılmadı heç bu yerlərdə,
Anamı saldınız bir yaman dərdə...
Onu iylədiniz, atdınız bir gün,
Həlak eylədiniz ömrünü bütün.
(9, s. 246)

N.Rəfibəylinin poeması kompozisiya baxımından bir sıra xüsusiyyətlərə malikdir. Əsər bir-birini tamamlayan hissələrə bölünmüşdür, həm də hər epizod müəllif remarkası ilə müşayiət olunur, hadisələrin inkişaf ardıcıllığı təmin edilir. Dramatik poemada əsərin əsas ideyasını əks etdirən monoloqların rolu əhəmiyyətlidir. Qeyd edək ki, Məhsətinin Həmayil, ögey atası xan və Nizami arasında baş verən dialoqu daha çox monoloq xarakteri daşıyır, ədəbi qəhrəmanın düşüncələrini əks etdirir. Xüsusilə Məhsətinin xanla söhbətində qarşılaşan tərəflər öz mövqelərini ortaya qoyurlar. Məhsətinin "atasının düşməninə könül verməsi, onunla dostluq etməsi" dövrün münasibətlərindən çıxış edən xanı razı salmır:

Özgə bir niyyətlə gəlmişdim bu gün,
Ağlımı başımdan çıxartdın bütün.
Elçilər göndərir o Şirvan xanı,
Şöhrəti tutmuşdur bütün cahanı.
(9, s. 249)

N.Rəfibəylinin öz qəhrəmanının diliylə xana qarşı çıxması tək bu əsər üçün deyil, bütövlükdə Məhsətinin həyat amalının, yaradıcılığının mənasını ifadə edir. Öz şeirlərində zəmanənin sosial çırpıntılarını, insanı, onun arzu və istəklərini, daxili aləmini vəsf edən Məhsəti bu zorakılığa dözə bilməzdi. Onun xana cavabı da bu hisslərdən irəli gəlir:

Canan həsrətiylə yanırkən ürək,
Dünyanın şöhrəti, malı nə demək?!
O nurdan qurulan saf məhəbbəti,
Heç satın alarmı bir xan şöhrəti?!
(9, s. 249)

Xanın: "Gəlin gedəcəksən Şirvana birbaş" əmri dövrün qadın hüquqsuzluğunu, ona bir vasitə kimi yanaşıldığını göstərir. Poema qəhrəmanları əsərdə məzmun və ideyanın emosional ifadəliliyini tələb edən dramatizmin kəskin vəziyyətində təsvir olunurlar. Bu mənada Məhsətinin hər bir fikrinin emosional obrazlığı, poetik mənası poemanın bədii ideyasının istiqaməti kimi qəbul edilir.

N.Rəfibəyli Məhsətinin Nizami ilə görüşündə də əsas fikri şairənin düşüncələrinə yönəldir. Əsərdə Məhsəti gəncləşdirilmiş, Nizami isə şairəyə "qızım" deyəcək qədər yaşlı verilmişdir. Düşünürük ki, tarixli faktla belə sərbəst rəftar N.Rəfibəyliyə Nizaminin daha qüdrətli şair olduğunun təsdiqi və ədəbi qəhrəmanına onun çətin məqamında təsəlli üçün gərəkli olmuşdur. Məhsəti həmkarına xanın onu bir oyuncaq kimi satmaq, eşqini şöhrət girdabında boğmaq istədiyini bildirir, əzilib, sıxıldığı dövrandan şikayət edir. Ağlına, istedadına güvənib saraya düşən Məhsəti anasının sözlərini xatırladır, bədbinliyə qapanır:

Töküb göz yaşını ağladı anam,
Dedi: "Yazıq qızım, gülüzlü sonam.
Əzəldən bədbaxtdır bir qız övladı..."
(9, s. 251)

təvazökarlıqla özünü qınayır ki,
Sənətin tükənməz xəzinəsindən
Əlimdə qiymətli bir gövhərim yox.
(9, s. 252)

Müəllifin bu sözlərə Nizaminin cavabında dediyi fikir:

Səni yetişdirən bu ana torpaq
Sənin sənətinlə abad olacaq.
(9, s. 253)

şairənin müasirlərinin, sonrakı nəsillərin ona verdiyi dəyər olmaqla, eyni zamanda əsərin başlıca ideyasını da təşkil edir.

Əsərin finalı inandırıcı şəkildə dövrün sosial-tarixi sərtliyini əks etdirir. Cahangirin vurulması və baş verənlərə Məhsətinin "Bunca dərdə insan etməzmi fəryad?!" (9, s. 253) üsyanı ilə bitən bu bədii parça sevən qəlbin kədərli məqamlarını oxucuya çatdırır.

M.Dilbazinin və N.Rəfibəylinin Məhsəti Gəncəviyə həsr olunmuş "Məhsəti" poemaları XII əsr görkəmli Azərbaycan şairəsinin şəxsiyyəti və yaradıcılığı haqqında oxucuda tarixi-filoloji faktları və rəvayətlər əsasındakı məlumatları dolğunlaşdırmaq baxımından əhəmiyyətlidir. Hər bir sənətkar Məhsəti obrazına fərqli yanaşmış, əsərdə fərdi yaradıcılıq xüsusiyyətləri nümayiş etdirsələr də, onlar ədəbi qəhrəmanının azad sevgi həsrətini, qadın hüquqsuzluğundan şikayətini eyni yanğı ilə tərənnüm etmişlər.

Böyük ədəbi irsinin qaldığı iddia edilən, həyat və yaradıcılığı o qədər də dərindən araşdırılmayan, yazdıqları indiyədək toplanıb çap edilməyən, vətən həsrətli şeirləri sadəcə olaraq dildən-dilə keçərək bugünümüzə qədər gəlib çatan Ağabəyim ağa Cavanşir (1780-1832) haqqında mənbələrin verdiyi məlumatlar məhduddur: O, İbrahimxəlil xanın qızı olub, münasibətləri yaxşılaşdırmaq üçün onu Fətəli şaha ərə veriblər, o da İran sarayında həsrət şeirləri yazıb. Mehriban Vəzir 2019-cu ildə "Ağabəyim ağa Cavanşir" (10) (Mehriban Vəzir "Ağabəyim ağa Cavanşir" Bakı, Pergament Yayın Evi, 2019, 218 s.) adlı tarixi-sənədli romanında Azərbaycanın, eləcə də Türk dünyasının yetirdiyi ən möhtəşəm xanımlardan biri, dövrün siyasi fəsadlarını taleyində yaşamış, dözüm və əzm rəmzi Ağabəyim ağa haqqında müxtəlif mənbələrdə səpələnmiş məlumatları toplayıb ümumiləşdirmiş, mövcud boşluğu qismən də olsa doldurmuşdur.

Dövrünün görkəmli şəxsiyyətlərindən olan Ağabəyim ağa Cavanşirin ədəbi obrazı N.Kəsəmənlinin (1945-2003) "Yaddan çıxmaz Qarabağ..." (11) (Kəsəmənli N. Hamısı sevgidəndir... Bakı, Gənclik, 1991, 296 s.) epik-dramatik poemasının predmetini təşkil edir. Əsərin süjet xətti aşağıdakı tarixi faktlar üzərində qurulmuşdur. 1797-ci ildə Ağaməhəmməd şah Qacar öldürüldükdən sonra taxta Fətəli şah çıxır. O, İranla Qarabağ xanlığı arasında münasibəti düzəltmək üçün İbrahimxəlil xandan qızı Ağabəyimi istəyir. Qarabağ xanı bu təklifi qəbul edir və 1801-ci ildə Ağabəyim ağanı İran hökmdarı Fətəli şaha ərə verir.

Poemaya epiqraf olaraq seçilmiş Ağabəyim ağanın "...Heç bilmədim ömrüm necə gəldi, necə getdi..." qəzəlindən olan misra Azərbaycanın bu böyük qızının, vətən təəssübkeşinin çətin, lakin mənalı həyatını şəkilləşdirməklə yanaşı, əsərin də əsas ruhunu təşkil edir. Gözlərimiz qarşısında Ağaməhəmməd şah Qacarın Şuşa qalasına amansız hücumlarının təsviri, son həmləsinin də boşa çıxdığı, uğursuzluqdan hiddətlənən qəddar sərkərdənin daxili yanğısı, şəhər müdafiəçilərinin iradəsi qarşısında acizliyi canlanır:

Aciz görünürdü əsgərlər ona,
Bir qala səddini keçə bilmirdi.
Qana susamışdı o qatil, qana,
Doldurub doyunca içə bilmirdi.
(11, s. 207)

N.Kəsəmənli Qacarın "Bir xalqı doğramaq arzusunu", yaralı əsgərlərinə baxıb "Qulaqları boyda doğrayın" deməsini, ölkələr talan etdikcə, başlardan qala ucaltdıqca "qəlbinə sərin su çiləndiyini" göstərməklə XIX əsr Azərbaycanının üzləşdiyi tarixi şəraiti önə çəkmiş, ədəbi obrazın gələcək taleyinin bünövrəsini hazırlamışdır. Epik məzmun daşıyan əsərdə dramatik hadisələr bir-birini əvəz edir, obrazların əməlləri və talelərı, aqibətləri ibrətamiz səpgidə ifadə olunur.

Xüsusilə, Qacarın qanlı niyyətlərinin puç olması, baş kəsməyə, qan tökməyə aludə olmuş zalımın ölüm səhnəsi, başlardan ucaltdığı qalanın "Bürcündə öz taclı başını" görməsi onun əməllərinin məntiqi nəticəsi kimi dəyərləndirilir:

Qan ilə dolmuşdu qılıncın qını,
Başa gətirdiyi – başına gəldi.
Nəfəsi souydan buz yastığını
Son dəfə qanıyla isidə bildi...
(11, s.208)

Ağaməhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra buraya diz çökdürməyə gəlmiş qoşunun məğlub halda, sürünə-sürünə geri dönməsi, "məğlubedilməz" sərkərdənin tabutunu özləri ilə aparması, düşmən əsgərinin dilindən səslənən bayatı:

Ətəkdə laləlləri,
Zirvələrdə qara bax.
Unudular hər qada,
Yaddan çıxmaz Qarabağ... (11, s. 09) bir tərəfdən xalqlara yalnız bədbəxtlik, ölüm-itim gətirən müharibələrə nifrət oyadır, digər tərəfdən, talançı Qacar ordusunun Şuşanın qəhrəman müdafiəçilərindən aldığı dərsin heç zaman unudulmayacağını təsdiqləyir. Ümumiyyətlə, poemada tez-tez işlədilən bu bayatı daha çox qürbətdə vətən həsrəti çəkən Ağabəyim ağanın dərdli ifadəsi olaraq səslənir.

*(Davamı 5-ci səhifədə)*

# AZƏRBAYCAN TARİXİ POEMALARINDA QADIN ŞAİRLƏRİMİZİN BƏDİİ OBRAZININ TƏRƏNNÜM XÜSUSİYYƏTLƏRİ

*(Əvvəli 3-cü səhifədə)*

İbrahimxəlil xan "Düşmən gedir!" xəbərini aldıqda "sevinmək tezdir", – deyə düşünür, çünki o, başsız qayıdan düşmənin bu məğlubiyyəti unutmayacağını, daha quduz nifrətlə yenidən hücum edəcəyini gözləyir. Əsərdə Ağabəyim ağa xan atası ilə söhbətində qonşu xanlıqlarla ittifaq bağlamağın gərəkliyi xatırladır, lakin İbrahimxəlil xan:

– Öz başını qoruyur,
Birliyin qüdrətini
Duymayır millət hələ... (11, s. 210)

deyərək təəssüflənir. İbrahimxəlil xan yenidən qanlı müharibənin başlanmasının qarşısını almağa, məsələnin sülh yolu ilə həll edilməsinə çalışır. O, "Qarabağ xanlığı ilə İran arasında münasibətləri düzəltmək üçün Fətəli şahın istəyini qəbul edərək qızı Ağabəyim ağanı ona ərə verməyi qərara alır" (12, s. 4). (Nemət Bəxtiyar. Xarı-bülbül əfsanəsi və Ağabəyim ağanın hüznlü taleyi. 525-ci qəzet.- 2016.- 24 iyun.- S.4.). Yenidən döyüşə girməyin nə ilə nəticələnəcəyini yaxşı təsəvvür edən İbrahim xan Qacarın cənazəsini böyük ehtiramla Tehrana göndərir. Fətəli şah onun bu hərəkətini məmnunluqla qarşılayır və "İbrahim xanla qohum olmaq niyyətini bildirir. Ürəyindən olmasa da, İbrahimxəlil xan da bu təkliflə razılaşmalı olur. Beləliklə, xan qızı 200-dən çox xidmətçisiylə birlikdə Qarabağdan Tehran sarayına göndərilir (13). N.Kəsəmənli Ağabəyim ağanın qürbət yolunu emosional duyğularla vermiş, təsirli ifadələrlə qəlbinin ağrı-acısını dilə gətirmişdir. Poemanın ruhunu, canını təşkil edən Vətənə məhəbbət ideyası qəhrəmanın bütün düşüncə və hərəkətlərində öz əksini tapır. Doğma Qarabağı sevməyi, ona əsil övlad məhəbbətilə xidmət etməyi özünün yüksək idealı, müqəddəs borcu hüsab edən Ağabəyim ağa yanıqlı bayatı çəkir:

Şuşam qalamdır mənim,
Yurdum anamdır mənim.
Mən onun balasıyam,
O da balamdır mənim. (11, s. 214)

Qeyd edək ki, epik-dramatik poemanın ideya-məzmununa uyğun olaraq N.Kəsəmənli müəyyən parçaları, xüsusilə də ədəbi qəhrəmanının düşüncə və duyğularını, yaşantılarını bayatı formasında qələmə almaqla əsərin təsir gücünü daha da qüvvətləndirmiş, oxucunun ayrılıq, həsrət, vətən dərdi kimi hissləri daha dərindən hiss etməsinə müvəffəq olmuşdur. Ağabəyim ağanın Qarabağ sevgisi əsərdə özünəməxsus səciyyəvi, təbii və rəngarəng boyalarla vəsf edilmişdir. Vətən məhəbbəti ideyasının poemadakı ifadə şəkillərindən biri də şairənin bayatılarından istifadə olunmasıdır.

Oxucunun nəzərində Ağabəyim ağa obrazı doğma diyarı odlu məhəbbətlə sevən, saf, səmimi, yaradıcılığında vətən məhəbbətini tərənnüm edən əməlpərvər, vətənpərvər bir şairə kimi canlanır. Əsil həqiqətdə də Ağabəyim ağa öz vətənindən, doğmalarından uzaq düşsə də, Qarabağı ürəkdən sevən, daim öz torpağının həsrəti ilə yaşayan bir Vətən həsrətlisi olmuşdur. Taleyindən şikayətlənən şairə: "Xan qızıydım, oldum kəniz" desə də, bu fədakarlığa vətəni, doğma eli üçün qatlaşdığından qürur duyur, təsəlli tapır, həyatını mənalandırır və həyat nümunəsi göstərir:

Mən gül əkib qəm biçdim ki,
O xalqsız mən bir heçdim ki,
Bu günü özüm seçdim ki,
Yaşasın ellərim mənim... (11, s. 216)

N.Kəsəmənli kədərilə barışmaq istəməyən Xan qızının Tehran sarayına gəlişinin ilk gününü, çəkdiyi əzabları ifadə edərkən qəhrəmanının "kədərli gündüzünü", "nəfəsinin qaralmasını", "üzüqoylu kədərinə yıxıldığını" və s. kimi daxili hissləri üzə çıxaran ifadə və birləşmələrdən istifadə edir, onu "Qızıl libas içində ölgün sonaya" bənzədir. Ağabəyim ağanın çarəsizliyi onun ilahi qüvvəyə müraciətən dilə gətirdiyi sözlərdə əks olunur:

Göydən yerə endi günəş,
Toy şamına döndü günəş,
Mənim üçün söndü günəş,
Açılma, sabah, açılma. (11, s. 218)

Yuxuda ulduza çevrilərək buluddanbuluda uçmaq arzusu azadlığa can atan obrazın son ümidi qaranlıq dünyada parlayıb-sönən bir işıq kimi sönür. Səhərin açılmasıyla əsərin qəhrəmanının yalvarışı üsyana çevrilir:

Qapımda kilid ol sən,
Zülmət qəlblərə dol sən,
Açılaydın mən ölsəm,
Niyə açıldın, səhər. (11, s. 220)

Poemada Ağabəyim ağanın ona toy libası geyindirməyə gəlmiş qarı ilə dialoqu, "Qarı nənə, libas yox, Kəfən yaraşır mənə", – deməsi, ondan imdad diləməsi, qarının öz başına gələnlərin Qarabağlı xanımın yaşamaması üçün əl atdığı tədbir ədəbi qəhrəmanın adıyla bağlı rəvayət əsasında qələmə alınmışdır. Adətə görə, gözəl xanımlar Fətəli şahın hərəmxanasına daxil olanda əvvəlcə çox bahalı və gözəl paltarlar olan otağa girməli, onlardan bəyəndiklərini seçməli və şahın hüzuruna getməli idi. Qarı Ağabəyim ağaya Fətəli şahın anasının libasını geyindirməklə ölümünü gözə alır. Gəncliyindən əsir alınaraq şah sarayına düşmüş və burda ömrünü çürütmüş bir yaşlı qadının gənc Ağabəyim ağanı qorumaq üçün daha nə edə bilərdi?

Bir libasın önünə
gətirdi qarı onu,
Özü öz əlləriylə
Geydirdi ona donu. (11, s. 221)

Fətəli şah Ağabəyim ağanı anasının paltarında görəndə özünü itirmiş, əhvalı dəyişmiş, bu tələni quranın dərhal asılmasını tələb etmişdi.

Əsərdə Ağabəyim ağanın mərdliyi və cəsarəti, qürur və əyilməzliyi, özünü əsilzadə kimi aparması onun Fətəli şahla bəhsləşmələrində daha qabarıq üzə çıxır – qarının libas seçimində günahı olmadığını qətiyyətlə şaha bildirir, kimliyini yada salır:

Bu günahsız qarıya
Nahaq olursan qənim,
Libası özüm seçdim,
xoşuma gəldi mənim.
Bir günahım var isə
əmr et, assınlar məni!
Bir də ki, mən xanımam,
nə qulam, nə də hökər,
Mənim libasxanaya
ərkim çatmırmı məgər?! (11, s. 223)

Ağabəyim ağa şah zövcəsi olsa da, hərəmxana həyatı, saray həmişə onu sıxmışdır. Onun dilindən deyilən "Yaddan çıxmaz Qarabağ!" bayatısı şairənin qürbətdə çəkdiyi Qarabağ – vətən niskilini çöx təsirli ifadə edir. Qələm də, bayatı da, göz yaşları da vətən həsrətini ovuda bilmir. Rəvayətə görə, Ağabəyim ağanın könlünü açmaq, şənləndirib sevindirmək, Vətən həsrəti çəkməməsi üçün Fətəli şah Tehranda möhtəşəm bir bağ saldırır, Qarabağda, Şuşada bitən gül-çiçəkləri, meyvə ağacları əkdirir. Hətta bu bağçaya qulluq göstərənlər də Şuşadan gətirilir, gülüstanı "Vətən bağı" adlandırırlar. Ağaclar qol-qanad atır, güllər ətir saçaraq min rəngə boyanır. "Vətən bağı" Qarabağın bir guşəsini xatırlatsa da, Ağabəyim ağa bağı dolaşdıqca qəmlənir, güllərin arasında "Xarı bülbül" gülünü çox axtarır, tapmır, onun bağa gətirilmədiyini düşünür, bağbanlar köks ötürərək ona:

– Çox çalışdıq, neyləyək,
"Xarı bülbül" yad eldə
Bitmədi ki, bitmədi... (11, s. 226)

- deyə təsdiqləyirlər. O andan Xan qızının nəğməsi "Vətən" deyib gözlərindən həsrət leysanı tökür, bülbülə "Sənə ki, yoxdur qadağa Boylan Vətən sarı bülbül" deyən şairə qalan ömrünü yad diyarda Fətəli şaha girov olaraq çürüdür, ömrünün puç olduğunu dilə gətirir:

Bir dürr idim, düşüb itdim,
Ağlayıb nəğmələr ötdüm.
Bu torpaqda nə mən bitdim,
Nə vəfalı "Xarı bülbül"!.. (11, s.227)

Poemanın bu bəndi dərin mətləblər anladır, qürbətdə sarayı qəfəs sayan, qəmdən könlü oyuq-oyuq olan Ağabəyim ağanın vətənsizlik ölümü, xarı bülbülün yad torpaqda bitməməsi halında taleyinə qaçqınlıq, didərginlik yazılan xalqımızın vətəndə olsa da, otuz ildən çox vaxt keçməsinə baxmayaraq doğma Qarabağdan, ata-baba yurdlarından uzaqda yaşamaları adamda heyrət doğurur.

Epik-dramatik poemanın epiloqunda N.Kəsəmənli insanın yalnız öz vətənində xoşbəxt olması fikrini təsdiqləyir, sözün poetik qüdrətilə vətən həsrətinin mənasını, vətənindən zorla ayrı salınmış Ağabəyim ağanın düşüncəsində vətən anlayışını, doğma yurd həsrətilə alışıb-yanmasını, qərib şairənin vətən yanğısının ah-naləsini, onu hər şeydən uca tutduğunu ifadə edir. "Qəriblik qəlbimi sıxsa hardasa, Yalnız Vətən olar, Vətən dərmanım"; "Vətənsiz olana nə şöhrət, nə tac? Qəriblər ölərlər bir ovuc torpağa möhtac..."; "Vətənsiz olana bu yer kürəsi Vətənin bir ovuc torpağı deyil" kimi həqiqətlər bədii obrazın timsalında Vətən həsrətlilərin ümumi dərdini çatdırır.

İncə ruhlu lirikası və xeyirxah əməlləri ilə Azərbaycan mədəniyyətində və ictimai həyatında silinməz izlər qoyan, parlaq istedada və qabaqcıl ideallara malik şəxsiyyət olan Xurşidbanu Natəvan (1832-1897) haqlı olaraq xalq məhəbbətini qazanmış, görkəmli şairlərimizin ona ehtiramla yaratdıqları tarixi poemalarda vəsf edilmişdir. M.Rahim və H.Arifin "Natəvan" poemalarında ədəbi obrazın xüsusiyyətləri, şairənin həyat və yaradıcılıq dövrü, ictimai amalı araşdırılır, əsərlərin tarixilik və müasirlik, dövrün bədii-fəlsəfi məziyyətləri onlara ədəbi tənqidin münasibəti baxımından dəyərləndirilir.

Öz yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatını əhəmiyyətli dərəcədə zənginləşdirən Məmməd Rahim (1907-1977) hələ gənc yaşlarından epik poeziyaya meyl salmış, "həyatdan aldığı zəngin müşahidələri öz hiss və həyəcanları ilə vəhdətdə, iri formalarda təqdim etməyə başlamışdır" (14, s. 4) (Əliyeva İfrat. Ön söz Rahim Məmməd. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Avrasiya press, 2006, 272 s.) Sənətkarlıq baxımından xeyli inkişaf edib təkmilləşən M.Rahim klassik ədəbiyyatımızın və xalq sənətkarlarımızın dahi nümayəndələrinə, o cümlədən Natəvana, poemalar həsr etmiş, onların bədii obrazını yaratmışdır.

Araşdırmalar göstərir ki, M.Rahim Qarabağın gözəl təbiəti və görkəmli şəxsləri haqqında əsər yaratmağı uzun illər ərzində düşünmüş, 1962-ci ildə "Natəvan" (15) (Rahim Məmməd. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Avrasiya press, 2006, 368 s.) poemasını yaradaraq XIX əsr Azərbaycanın lirik şairəsi Xurşidbanu Natəvana poetik məhəbbətini ifadə etmişdir. Poemanın məzmunundan aydın olur ki, M.Rahim Natəvanın yaradıcılığını, dövrünü, mühitini, müasirlərini, həyat sarsıntılarını tarixi faktlar əsasında dərindən və hərtərəfli öyrənmiş, "İsa bulağı" (1935) (s. 21-24) və "Kəpənək" (1939) (c. 39-40) adlı iri həcmli lirik şeirlərində (16) (M.Rahim. Seçilmiş əsərləri. II cilddə. I cild. Bakı, "Avrasiya Press", 2006, 272 s.) Qarabağın görkəmli şəxsiyyətlərinin obrazını yaratmışdır.

Xan qızı Natəvanın şair və rəssam, ədəbiyyat xadimi və xeyriyyəçi, xalq rifahı uğrunda mübariz surətinin yaradılması yolunda M.Rahimin ən ciddi addımı isə Azərbaycan Sovet Yazıçıları İttifaqının bədii ədəbiyyat, incəsənət və ictimai-siyasi orqanı olan "Vətən uğrunda" jurnalının 1943-cü ilin 7-8-ci sayında dərc olunmuş "Natəvan" məqaləsi (17) (M.Rahim. Natəvan Vətən uğrunda, 1943, № 7-8, s. 93-101) hesab edilir. Şairənin yaradıcılıq xüsusiyyətlərini, "Məclisi-üns" ədəbi məclisinə rəhbərliyini, ədəbiyyatda qazandığı mövqeyini, xalqın firavanlığı yolunda zəhmətini, zəmanənin və mühafizəkar qüvvələrin onu nüfuzdan salmağa edilən cəhdlərini, övlad itkisinin acısını əks etdirən məqalənin əsas müddəaları sonradan poemanın məzmununa çevrilmiş, "M.Rahim zərif ruhlu şairənin (Natəvanın – S.Ə.) lirik şeirlərindəki giley-güzarı, şikayətlərin əsl səbəbini onun yaşadığı mühitin zülmündə axtarmış və ona ictimai məna vermişdir" (14, s. 9).

Müqəddimə, 16 hissə və sonluqdan ibarət olan iri həcmli lirik poemada müəllif Natəvanın həyatını, taleyini, zəmanəsini, müasirləri ilə yaradıcılıq ünsiyyətini təsdiq olunmuş tarixi-filoloji faktlar əsasında canlandırmış, şairənin yaradıcılığının və şəxsi həyatının bütün dramatik cəhətlərini poetik düşüncə süzgəcindən keçirmişdir. Lakin əsərdə şairənin həyatının bir faktının dəqiqləşdirilməsinə ehtiyac duyulur. Poemada knyaz Xasay bəyin Natəvandan ayrılması məqamı şairənin dilindən bağban Kamirana söylədiyi:

– Xasay bəy, zənnimcə, qapıldı hissə,
Təkidlə söylədi: köçək Tiflisə.
Bir də unut, dedi, şeir yazmağı,
Bu qələm, o bəyaz dəftər varağı
Səndən uzaq olsun; anasan ana.
Gedək ya Tiflisə, ya Dağıstana.
(15, s.154)

fikirlə və şairənin bibisi Ağabəyim ağanın yad diyarda ömür çürütməsilə əsaslandırılması, fikrimizcə, M.Rahimin bədii təxəyyülünün yanaşması kimi qəbul olunmalıdır. Əsil həqiqət isə Dağıstana çağrılan Hacı Xasayın Şamil hərəkatının tamamilə yatırılması üçün bir sıra əməliyyatlara başçılıq etməsi və dağlıları zorla Anadoluya köçürülməsinin təşkililə bağlıdır. Xasay bəy ailəsinə görə nə bu tapşırıqdan imtina edə, nə də onu yerinə yetirə bilməzdi. Beləliklə, Xasay bəy ailəsinin gələcək təhlükəsizliyi naminə Natəvandan rəsmən ayrılır, onun yenidən ailə qurmasına, xoşbəxt olmasına rəvac verir. Bu tarixi fakt öz bədii təsdiqini L.Bəyimin Natəvana həsr olunmuş "Atla gediş" pyesində (18, s. 31-32) (Beqim L. Xod kon«m «Literaturnıy Azerbaydjan», 2019, № 4, s. 17-33) tapır.

Müqəddimədə gözəl Qarabağın təbiətinin doğurduğu hisslərdən çəkilən mənzərə İsa bulağını, Cıdır düzünü göstərir, yaşıllıqlar arasından Xanın səsi, "Qarabağ şikəstəsi" duyulur, müəllif oxucunu yazacağı dastandan, onun qəhrəmanından xəbərdar edir:

Xəbərin yoxsa o cənnət diyardan,
Sənə yol göstərən bu dastan olsun.
Onun qəhrəmanı iftixarımız –
Xan qızı, şairə Natəvan olsun.
(15, s.150)

*(Davamı 7-ci səhifədə)*

# AZƏRBAYCAN TARİXİ POEMALARINDA QADIN ŞAİRLƏRİMİZİN BƏDİİ OBRAZININ TƏRƏNNÜM XÜSUSİYYƏTLƏRİ

*(Əvvəli 5-ci səhifədə)*

Əsər baharın ilk çağında Şuşanın bayram səhnəsilə açılır, xalq öz ömürgününü onunçün şam kimi əridən, insanların rifahı üçün çalışan Qarabağın sevimlisi, şairə xan qızının Şuşanın meydanına bulaq çəkdirdiyini bayram edir. M.Rahim əsər boyu Qarabağın təbiətini tərənnüm etmək kimi ədəbi priyomdan – bədii ricətdən istifadə edir, təbii gözəlliklə ədəbi qəhrəmanı arasında mənəvi assosiativlik yaradır, tarixin, şairə ömrünün əks olunmasında təbiət lövhələrinə üz tutur. Şuşanın, Qarabağın təbiət varlığının canlı tablosunu yaradan müəllif vətənin zəngin bədii təxəyyülünü əlvan rənglərlə ifadə etmişdir. Yalnız yurdumuzun əsrarəngiz təbiətinə bələd olan və bədii hissiyyata arxalanan sənətkar təbiət-insan ahənginin belə mənzərəsini yarada bilərdi. Təbiətə həssas münasibət və ona müraciət M.Rahimə ədəbi qəhrəmanının füsunkar təbiətin daha da canlandırılması üçün su, yol çəkdirmək, körpü tikdirmək kimi məqsədini, fəaliyyətini açmaq məqsədinı daşıyır. Təbiətin varlığına poetik baxış şairə imkan verir ki, təbiətlə həmahəng səslənən Natəvanın varlığını, poetik yaradıcılığını və xeyriyyəçilik fəaliyyətini poemanın mövzusuna çevirsin, şairənin hiss və həyəcanlarını, düşüncələrini olduğu kimi verə bilsin.

M.Rahim "Natəvan" poemasında ədəbi obrazın yaradıcılıq məqamlarının əsas cəhətlərinin – "Sarayında sənəti, mədəniyyəti, söz-sənət adamlarını himayə etməsinin, "Məclisi-üns" ədəbi məclisini yaratmaqla böyük bir ədəbi nəsil yetişdirməsinin, zamanın, quruluşun, çar Rusiyasının çökdürə bilmədiyi Natəvanın oğul dərdinin çökdürməsinin, həyatının bütün ağrı-acılarının" (19, s. 5) (Əliyeva-Kəngərli Gülşən. Qəhrəman türk xatunları "Kredo" qəz. № 10 (935) 07 mart 2019) dramatik poetikasını yaratmış, ədəbiyyatımızda onun əsl mövqeyini müəyyənləşdirmişdir.

Dövrünün ağıllı və savadlı xanımı, Azərbaycanın söz dünyasının işıqlı dan ulduzu olan Natəvan xanlıq dövrünün adət-ənənələrinin, dini mövhumatın qatı amansızlığından az əziyyət çəkməmişdir. M.Rahim poemada Hacı Səfərin, Axund Səfanın şairəyə qarşı çirkin niyyətlərini, ona iftira atdıqlarını, xalqın gözündən salmağa çalışdıqlarını, lakin məqsədlərinə çatmadıqlarını, Natəvanın bu sınaqlardan ləyaqətlə çıxdığını təsvir edir.

Poemada Natəvan böyük bir ədəbi məktəb yaradan görkəmli söz ustadı kimi tərənnüm olunur. Ədəbiyyat tariximizdə ənənələri bu gün də davam edən "Məclisi-üns"ü yaratmaqla (1872) Natəvanın Şuşa və Qarabağ şairlərini ətrafına toplaması, Məxfi, Məriz, Sadiq, Katib, Məştəri, Yusif, Növrəz və digər şairlərlə Nizami, Füzuli, Nəvai, Hafiz, Xətai kimi ədəbiyyat klassiklərinin yaradıcılığını öyrənmələri və inkişaf etmələri ədəbi qəhrəmanın başlıca xidməti olaraq dəyərləndirilir.

Yatır şuşalılar dərin yuxuda
"Məclisi-üns"çülər ancaq oyaqdır.
Böyük Füzulinin əsərlərindən
Şairlər bu gecə oxuyacaqdır.
(15, s. 158)

Poemada "Məclisi-üns"ün şöhrətindən, onun Şirvandakı "Beytüs-səfa" və Bakıdakı "Məclisi-şüəra" məclisləri ilə əməkdaşlığına diqqət yetirən M.Rahim Natəvanın o dövrün ədəbi yaradıcılığında əhəmiyyətini və rolunu açmağa çalışmış, əsərin 4-cü hissəsini bu mərama yönəltmişdir.

Əsər müəllifi ədəbi obrazının portretini yaradarkən Natəvanın özünə ustad olaraq Füzulini seçdiyini, tələbə-ustad münasibətini formalaşdıran başlıca xüsusiyyətlərini – sözlə dərin məna, incə hisslər, bəşəri duyğular yaratmaq bacarığını qabartmış, yeri gəldikcə onların əsərlərindən seçmələrə üz tutmaqla sələf-xələf qarşılaşması fonunda öz niyyətini gerçəkləşdirmişdir. M.Rahim əsər boyu Natəvandan, Məhsətidən, Axundovdan, S.Ə.Şirvanidən, Vidadidən, Vaqifdən başqa və onlardan da dahi olan Füzuli obrazını yaradır və onu bütün dövrlərin şairi adlandırır, Natəvanın dilindən dünyaya sual edir:

Dünyada varmıdır belə bir şair
Böyük Füzuliyə bərabər olsun?..
(15, s. 162)

Natəvan obrazını yaradan müəllif onu Nizami dövrünün Məhsətisilə yanaşı qoyur, bu iki qadın şairəni birləşdirən cəhətlərin həyat, ölüm, məhəbbət olduğunu vurğulayır, onların hər birinin öz dövründə məruz qaldıqları fəlakətin mahiyyətini açmağa çalışır.

M.Rahim ədəbi qəhrəmanını dağ çeşməsi kimi billur, rəvan təbə malik şairə, əməlləri ilə xalqı firavanlığa doğru aparan xan qızı, eyni zamanda dövrün fəlakətlərindən, taleyin zalımlığından divanə olmaq dərəcəsinə çatan insan kimi yaradır və bütün hallarda tarixi gerçəkliyə sığınır. Poemanın 6-cı hissəsində qızı Xənbikənin vaxtsız vəfatından dərin düşüncəyə qapanan, nakam bala dərdi, ağır zamanla təkbaşa qalan Natəvan Hacı Səfər ağanın şairəyə "nüfuzlu qəhmər olmaq" istəyini ona çatdırmağa gələn Axund Səfa ilə söhbətində Azərbaycan adlı məmləkətin xanlıqlara parçalanmasına, ellərin günahsız oda yanmasına, qan içində boğulan xalqın dərdinə çarə axtarır və əlacı onda görür ki,

Natəvan da bu gün öz sənətilə,
Xalqa olan dərin məhəbbətilə
İşıqlı günlərə yol açmalıdır. (15, s. 169)

və məktəb açmağın yada salınmadığı, xalqın qeydinə qalınmadığı, vicdanlılara qiymət verilmədiyi, azad fikirlilərin dara çəkildiyi dövrün səciyyəsini belə ifadə edir:

Dövran simasızın, müxənnətindir,
Namusla yaşamaq xeyli çətindir.
Əqldən heç yanda nişanə yoxdur.
Od sönüb, yanmağa pərvanə yoxdur.
(15, s. 173)

Əsər boyu Natəvanın bir şair, ana, vətəndaş, dövrünün görkəmli ziyalısı kimi dərdlərini, onun vətən yanğısını dilə gətirən M.Rahim o mövqedən çıxış edir ki, "Natəvanın dövrü demək olar ki, Qarabağın kədər dövrüdür. Dərin dərrakəli bu həssas qadın haman dərd və kədəri duymuş, onu gözəl qəzəllərində əks etmişdir" (4, s. 96).

Taleyinə düşən dərdlərinə qalib gəlməkdə Natəvanın ən yaxın ürək sirdaşı olaraq əsərdə dahi Füzuli çıxış edir – ağır zamanlarında, dar günündə şairə dərdini ustada deyir, ancaq onunla dərdləşir, ancaq ondan kömək diləyir:

Açdı divanını ehtiyat ilə
– Yenə də sən özün yol göstər, – dedi, –
Necə rəftar edim bu həyat ilə!
Yeriyir üstümə sitəmlər, – dedi.
(15, s.174)

Natəvanın dərdlərini bayatıları ilə dilə gətirən müəllif şairənin "ağlar keçən" günlərinə, "sönən eşqinə, məhəbbətinə", "çıraq kimi sızıldayan" ömrünə, "binadan gülmədiyinə", "uğursuz illərə" düşdüyünə ağlayır, onu "xəzan vuran yarpağa", "külə dönmüş ocağa" bənzədir, dərdlərə dözməyin əlacını Füzuli divanının dil açması ilə qeybdən gələn səs ona "Yönəlsə üstünə qasırğa, tufan Dalğalar qoynunda qaya tək var ol", – deyir.

Poemanın 9-cu hissəsində M.Rahim Natəvanın fransız yazıçısı Düma ilə görüşünü canlandırır və ədəbi qəhrəmanın elm, dünya haqqında təqdimatının qonaqda müsəlman qadınlarına olan düşüncələrini necə alt-üst etdiyininin palitrasını yaradır. Düma şairənin timsalında o dövrün elmli, dərrakəli qadını ilə görüşür və heyranlığını gizlədə bilmir. "Natəvanın həm ona sitəm edənlərlə (Hacı Səfər, Axund Səfa), həm də dost kimi münasibət göstərən Düma ilə görüşlərində bir qayda olaraq milli ləyaqət mövqeyindən çıxış edir" (19, s. 131). (Əliyeva İfrat. Məmməd Rahim, Bakı, Yazıçı, 1987, 200 s) Natəvanın öz dilindən səslənən şeirdə hədsiz qəm-kədər, bədbinlik duyan Dümaya şairənin "– Günləri xoş keçən, dedim, – ağlamaz" (15, s. 186) cavabı onun ağlının və zəkasının təsdiqidir.

Azərbaycan mədəniyyəti tarixində lirik şair və rəssam kimi şöhrət tapan Natəvanın hələ sağlığında şeirləri el-el, oba-oba dolaşıb Qarabağla yanaşı Şəkidə, Şirvanda, Qubada və Bakıda məşhurlaşsa da, müəllifinə şöhrət gətirsə də, onun bədxahları da olmuş və şairəyə həcv yazaraq onu alçatmağa çalışmışlar. Poemanın 7, 8 və 10-cu hissələrində Hacı Səfər öz arzusuna çatmadığından Natəvandan intiqam almaq fikrinə düşür. Şair Asi və bəzi Qarabağ şairləri birləşib şairəyə həcv yazır, onun pak adını və şöhrətini ləkələmək istəyən bu qaragüruh adamlar əməllərinin üstü açılmasın deyə xanlıq evində bəslənən bir göyərçin oğurlayıb ayağına məktub bağlayıb hədəflərinə çatdırırlar.

Xalq arasında hörmət və nüfuz sahibi olan Natəvana qarşı törədilən bu naqis hərəkət hamılıqla pislənir. M.Rahim Axund Səfanın minbərdən şairəyə böhtan yağdırmasının, məscid əhlini onu daşqalaq etməyə yönəltməsinin nəticəsiz qaldığını, əksinə, insanların hamılıqla Xan qızının xalq üçün gördüyü xeyirxah işləri sadalamalarını və Asinin bəd əməlini qamçıladıqlarını geniş təsvir edir. "M.Rahim qəzəblənir, ricətdə "Necə belə rəzalətin şahidisən, ey Qarabağ!" – deyir. Müəllif bu həcvin şairəyə necə təsir edəcəyini duyur və ricətdə zamanı hədələyir: "Sənə ancaq bu iş üçün Qoy ar olsun, ey zəmanə!" (20, s. 73) (Mərdanova S.M. Məmməd Rahimin poemalarında lirik ricətlər Bakı Dövlət Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. 2008, № 3, s. 71-75) S.Ə.Şirvaninin Natəvanı ciddi surətdə müdafiə edərək Asiyə cavabı isə şeirimizin gövhəri, fikri təmiz, gözüaçıq şairəni şər qüvvələrin puç niyyətindən qoruması kimi qiymətləndirilir.

Natəvanınsa ona atılan böhtanlara və qarayaxmalara cavabı ürəyinin al-qanilə, dağ əridən fəryadilə, fəğanilə yazılmış sözlərində, taleyindən narazılıq ifadə edən "Mənmi günahkaram, dövranmı yoxsa?" düşüncələrində əks olunur. Dövrünün məşəqqətlərini, taleyinə düşən dağdan ağır dərdlərini, qəlb çırpıntılarını şeirlə ifadə edən Natəvanın ğmrü dözülməsi mümkün olmayan, lakin bu mərd qadının mərdliklə və əyilməzliklə tablaşdığı zülmlərlə bitir. "Tale kəm, mürtəce adamlar çox, havadarlar isə didərgin düşməkdə, sürgünlərdə çürüməkdə, ölüb getməkdə ikən, Natəvanın son taqətini bir də oğlu Mir Abbasın vaxtsız ölümü əlindən aldı" (17, s. 100). Burda sanki Natəvan ömrünün sonluğu üçün yazılmış ustad Füzulinin məşhur "Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun" misrası necədə yerinə düşür!, Natəvan dünyasının uçulub dağıldığını əks etdirir.

Şairə Natəvan küskündür yenə,
Cəfalar əlində qəlbi yaradır.
Fələk əl qalayıb istəklərinə,
Dünya gözlərində matəmsəradır.
(15, s.191)

Poemanın 11-ci hissəsindən gətirilmiş bu bənd xalq dərdini çəkməkdən dağ kimi qəlbi muma dönən, övlad itkisinə yas tutmaqdan gözləri tutulan şairənin son fəryadıdır. M.Rahim Natəvanla can üstə olan oğlu Mir Abbasın vida səhnəsinin dəhşətini – imdad diləyən oğulla fəryad qoparan ananın müsibətini daşları əridəcək ağu dolu ifadələrlə, dərddən daşa dönmüş ananın lal baxışı ilə çatdırır:

Nələr eşidirəm, ey zalım fələk,
Dünən qızım öldü bahar əyyamı,
Bu gün də verirsən mən qəmküsara
İçi ağu dolu zəhərli camı.
(15, s. 192)

Dərdli Natəvanın qəlbindən qopan son arzusu bütün sərvətini qoyub Mil düzünə də arx çəkdirmək, onu Mir Abbasın adıyla bağlamaq istəyi olmuşdur:

Yumdu gözlərini dünən Mir Abbas,
Dağlardan ağırdır bala firqəti.
Arx onun adilə bağlansın barı,
Özü tərk etsə də bu təbiəti...
(15,s.198)

Lakin bədxahların şairəyə mənəvi sarsıntılarla yanaşı, iqtisadi zərbələr də vurması səbəbindən bir neçə il ərzində sərf olunan zəhmət və çəkilən xərclərə baxmayaraq onun bu istəyi baş tutmasa da, xoşməramlı əməl olaraq nəsillərin ehtiramını qazanmışdır.

M.Rahimin yana-yana və ürək ağrısıyla Xan qızının mənalı və ağır fəsillərini yazıb dastana çevirməsi də xalqımızın mənəvi dəyərlərinin ən zərif incisi sayılan şairəyə olan xalq məhəbbətinin ifadəsi kimi qəbul edilir. Poema nikbin ruhla bitir, bu nikbilliyin cövhərini Natəvanın xalqına sərf olunan mənalı ömrü təşkil edir. Onun xeyirxah, humanist ideyalarına, xalq məhəbbəti qazanmış yaradıcılığına sözlə abidə ucaldan M.Rahim sənətinə məftun olduğu şairənin dilindən, həm də bütün xalq adından, qürurla ölməzlik kəsb edən bu fikri təsdiqləyir:

Xeyr, tərk etmədim ana yurdumu,
Çevrilib laləyə, çəmənə gəldim;
Əcəl sevinməsin, ölməyimlə mən
Əbədi qayıdıb vətənə gəldim.
(15, s. 200)

Beləliklə, "M.Rahim Natəvanı zamanın övladı kimi qələmə alsa da, onun şəxsi nümunəsində bu günün oxucusuna üz tutmuş, xalqa və vətənə təmənnasız xidmətin, vətəndaşlıq yanğısının bu parlaq mücəssəməsini bizim günlərin ictimai ideallları mövqeyindən sənətə gətirməyi qarşısına məqsəd qoymuşdur" (19, s. 132). (Əliyeva İfrat. Məmməd Rahim, Bakı, Yazıçı, 1987, 200 s.)

XX əsrin ikinci yarısı Azərbaycan poeziyasının mövzu aləmini və sənətkarlıq xüsusiyyətlərini öz şair təbi və canlı dili, kövrək ruhu və zərif duyğuları, incə deyimli ifadələri və sözlə düzgün rəftar bacarığı ilə yeni üfüqlərə qaldıran Hüseyn Arif 1971-ci ildə yazdığı "Natəvan" (21) (Arif Hüseyn. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 224 s.) poemasını oğlu Arifin kədərli taleyinə və əziz xatirəsinə həsr etmişdir. Şair çoxcəhətli yaradıcılığında xalqımızın görkəmli simalarına, söz ustadlarına, tariximizin ayrı-ayrı məqamlarına və müasir dünyamızın yadda qalan hadisələrinə 40-a yaxın poema həsr etmiş, bu janrın imkanlarından bacarıqla istifadə etməklə söz xəzinəmizə dəyərli təhfələr vermişdir.

Həyatında baş vermiş oğul müsibəti, Arif dərdi şairə silsilə şeirlər yazdırmış, o öz dərdini bir daha "Natəvan" poemasında dilə gətirmişdir. Beləcə taleyində Natəvan ömrünə düşmüş övlad itirməyin acısını yaşamış H.Arif təkcə özünün qalan ömrünün üzüntüsünü deyil, həm də övlad dərdinin bir nikbin ruhlu şairin yaradıcılığının qəm, kədər üzərində necə kökləndiyinin əyaniliyini yaratmışdır.

*(Davamı 10-cu səhifədə)*

*(Əvvəli 7-ci səhifədə)*

Şair poemanın təsirli, yadda qalan alınması üçün Azərbaycan dilinin zəngin ədəbi-bədii, lirik-poetik vasitələrini məharətlə işlədərək sələfinin qüssə-kədərini öz dərdləri səviyyəsinə qaldıra bilmişdir.

H.Arif "poemada Natəvanın həyatını bütün genişliyi ilə canlandırmağı qarşısında məqsəd qoymamış, bu xeyirxah və mənalı ömrün bəzi əlamətdar cəhətləriniqələmə alaraq, məzmunca dolğun, şeiriyyətcə gözəl, poetik lövhələrlə bir əsər yarada bilmişdir" (22, s. 15) (Pənahova G.P. Hüseyn Arifin yaradıcılığı. Fil. elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dis-nın avtıreferatı. Bakı, 2007, 24 s.)

Bütünlüklə lirik-emosional tərzdı yazılmış lirik poema şairin Natəvana müraciətilə başlanır, onun hər misrası şair-atanın dost göynədən, yar ağladan, dil titrədən qüssəsini yaradır, oxucuya bu dərdin ağırlığını yaşadır. Hüseyn Arif dərdinə dözümü Natəvanda arayır, onu özünə həyan olmağa səsləyir:

Çox sınadım öz-özümü,
Başqadır şair dözümü.
Sənə çevirib üzümü,
Gətirmişəm güman bacım,
Ay mənim Natəvan bacım! (21, s. 311)

Qüssə-kədər üzərində köklənən, əsasən hecanın 8-lik və 11-lik ölçüsüylə yazılan əsər müəllifdə Natəvanın dözümünə bir heyrət oyadır, onun şairə kimi varlığını ölçüb-biçmədə başlıca meyara çevrilir, dəyərqiymətini yəqinləşdirir:

Şair məhəbbəti, şair ilhamı
Gözəllik eşqiylə çağlayan çaydı.
Vaqifsiz qalardı Azərbaycanım
Onun Natəvanı yaranmasaydı.
(21, s. 312)

gedən, günəşli gündüzü sönən şairənin halına acıyır, ona Zakirdən başlanan ehtiramı və məhəbbəti dilə gətirir, qəhrəmanının yeni-yeni xarakterini açır:

Amansız hökmünü duydun zamanın,
Nakam balaları gətirdin yada.
Ağladın halına min-min ananın
Doğma Mirabbasa ağlayanda da.
(21, s. 321)

Poemanın son bəndləri "ana qucağında Xurşud, dövrün pəncəsində Natəvan olan" şairənin xatirəsinə oda kimi səslənir, H.Arif sğzün məna və təsir gücünü daha da artıraraq

Vaxt olur, insanı vaxtından əvvəl
Təbiət öldürmür, əzab öldürür.
Bədənin torpaqda daldalansa da,
Döyünən ürəyin sözündə qaldı
(21, s. 323)

Vətəndə torpağa qarışan insan
Torpağa qoşulub yaşar vətəndə.
(1, s. 324)

kimi aforizmlər yaradır, Natəvana xalq məhəbbətini ifadə edərək onu "Ana Məhsətinin tək yadigarı, bir məmləkətin başının tacı" adlandırır.

Lirik poemanın son misraları Natəvanın Bakıdakı heykəli önündə müəllifin düşüncələrini əks etdirir. Bu sətirlər baharın gəlişilə, dünyanın yeniləşməsilə şairin də əhvalında baş verən pozitiv dəyişiklikləri, qəm-kədərin yaşamaq, sevincli həyat eşqilə əvəzləndiyni ehtiva edir. H.Arif həyatda xeyirlə şərin əbədi mübarizəsini diqqətə çəkərək, yeni dünyamızda yenidən doğulan Natəvana göz aydınlığı verir, şairəni

Üfüqdə gülən səhərə
Daha işıqlı günlərə
Bizimlə bir addımlayan
Xan qızı Natəvan bacım. (21, s. 325)

sözlərilə salamlayır, görkəmli şairəyə həsr etdiyi hekayətini poemanın ilk misrala-

# AZƏRBAYCAN TARİXİ POEMALARINDA QADIN ŞAİRLƏRİMİZİN BƏDİİ OBRAZININ TƏRƏNNÜM XÜSUSİYYƏTLƏRİ

Natəvanın "Xanqızı bulağı"ndan, əsrlərlə su görməyən, gül bitməyən, bar verməyən boz torpağa nicat verməsindən, ağrılara, acılara dözə-dözə qanasızlara qanad verməsindən, yatan elə həyatından həyat verməsindən, ecazkar şeirlərindən söz açan H.Arif qarabağlı bacısını qürur və minnətdarlıqla anır, onun dünyaya yayılan şöhrətiylə öyünür:

Təkcə Qarabağmı yurdun, məskənin?
Ölkələr fəxr edir doğma adınla.
Şirin qəzəllərin dillər əzbəri,
Könüllər isinib könül odunla.
(21, s. 315)

H.Arif Natəvan obrazını yaradarkən ədəbiyyatda bütün dövrlər üçün aktual sayılan insan həyatının mənasını, qurub-yaratmaqla tarixdə iz qoymasını əsas götürür. Elinə-obasına olan etimadıyla bütün dövrlərin etimadını qazanan, ən yüksək insanlıq zirvəsinə ucalan, dərya kamalıyla Günəşə çatan, baxışları ilə zülmətin bağrını sökən Natəvanın bədii obrazı qərinələr arxasından boylanır, şairin düşüncəsində özünə yer alır.

Bədii obrazın əməllərini, yaşadıqlarını bir insan ömrünə sığmayan tale qisməti kimi dəyərləndirən poema müəllifi onların "sığışmaz varağa, sığışmaz dilə" qənaətinə gəlir, Natəvan irsinin lazımınca öyrənilməməsinə görə, "yazanlar çoxunu yazmayıb hələ", –deyərək elm və incəsənət adamlarını qınağa çəkir, sözü, söhbətilə Natəvana dastan qoşur:

İnsandan söz açmaq istərəm yenə,
Səni düşündükcə bir insan kimi.
(21, s. 318)

Və H.Arif düşüncəsində Natəvanı arxasıza arxa çıxan, köməksizə kömək edən, ümidini itirənə ümid olan, ürəyində dünyanın möhnət dağını çəkən görkəmli söz ustadı, xalqın dərdinə yanan el anası kimi – Natəvan kimi təqdim edir. Dərdli H.Arif öz kədərindən Natəvan qüssəsinə körpü salaraq "çəkilməyə qəm yükünü çəkənlər bilər" məntiqiylə bu ilin dərdini günə yükləyən ədalətinə etirazını ucaldır, sönməz yanğıyla Azərbaycanın söz mülkündən sözü rında rədifə çevirdiyi müraciətlə, yalnız xoş notlarla bitirir.

İncə lirikası, xeyirxah, humanist əməlləri ilə adını vətən tarixinin səhifələrinə qızıl hərflərlə həkk etmiş Xurşud Banu Natəvan obrazını ədəbi qəhrəmana çevirmiş M.Rahimin və H.Arifin "Natəvan" poemalarında oxucu qarşısında istedadlı şairəni, incə ruhlu qadın-ananı, əzabkeş insanı görür, xalqımızın milli-mənəvi dəyərlərini formalaşdırmış ən layiqli nümayəndələrindən biri ilə canlı ünsiyyət bağlayır.

Nəticə. Azərbaycan tarixi poemalarında Məhsəti, Ağabəyim ağa və Natəvanın bədii obrazı öz yaradıcılıqları ilə ədəbiyyat tariximizdə layiq olduqları mövqedə dayanan qadın şairləri kimi tərənnüm olunur. M.Dilbazi və N.Rəfibəylinin "Məhsəti" poemalarında Məhsəti Gəncəvinin əsas xüsusiyyətlərini fəaliyyətində humanizmliyi və nikbinliyilə seçilməsi, poeziyada azad fikriliyin ilk carçılarından sayılması, dövrünün qüdrətli şairi, hərtərəfli savad və yüksək ideallar sahibi, qadın hüquqlarının müdafiəçisi, şairlər məclisinin başçısı, maarifpərvər ziyalı, qabaqcıl şəxsiyyət olması təşkil edir.

N.Kəsəmənlinin "Yaddan çıxmaz Qarabağ..." epik-dramatik poemasının ədəbi qəhrəmanı olan Ağabəyim ağa vətən həsrətli şeirlər müəllifi, dövrün fəsadlarını taleyində yaşamış, dözüm və əzmkarlıq göstərmiş şair, ədəbi fəaliyyətə yenicə başladığı zamanda doğma mühitindən və vətənindən ayrı düşmüş qürbət qurbanı kimi canlandırılır.

M.Rahim və H.Arifin "Natəvan" poemalarında Xurşidbanu Natəvan obrazı incə lirik qəzəlləri ilə seçilən şair, xeyriyyəçilik fəaliyyəti ilə xalqının rifah halını yaxşılaşdırmağa çalışan Xan qızı, dövrünün ağırlığını çəkən, oğul itkisilə üzləşdikdən sonra mərsiyələr yazan, böyük kədərini dilə gətirən, zəmanəyə acı şikayətlər yağdıran, şairləri ətrafına toplayıb "Məclisi-üns"ə rəhbərlik edərək öz məktəbini yaradan, xalqın savadlanması uğrunda çalışan qabaqcıl ziyalı qismində təsvir olunur.